UOT 332.122

*Kənan Sahəddin oğlu MUSAYEV*
*doktorant, Bakı Dövlət Universiteti*
*E-mail: kenan.musayev.57@gmail.com*

# ŞƏRQİ ARALIQ DƏNİZİNDƏ HƏMSƏRHƏD ÖLKƏLƏRİN DƏNİZDƏ “AZAD İQTİSADİ ZONASININ HÜDUDLARININ” MÜƏYYƏN EDİLMƏSİ UĞRUNDA İQTİSADİ-DİPLOMATİK HƏMLƏLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi:** İqtisadi diplomatiya hər bir regionda baş verən iqtisadi münaqişələrə adekvat təsirlər göstərməyə və ölkələrin bu cür diplomatik kanallar vasitəsi ilə daha çox sülhün və sabitliyin əldə edilməsinə çalışılmasıdır. Dünyanın elə regionları vardır ki, həmin regionlarda dövlətlərin iqtisadi maraqları kəsişir. Şərqi Aralıq dənizi də belə regionlardandır. Bu yöndən yanaşaraq regionun dərindən tədqiq edilməsi önəmlidir.

**Tədqiqatın metodologiyası:** Şərqi Aralıq dənizinin iqtisadi əhəmiyyətinin və iqtisadi diplomatik əlaqələrin inkişaf istiqamətlərinin müqayisəli təhlili və inkişafı, eləcə də bu əlaqələrin formalaşması ilə xarici ticarət dövriyyəsinin stimullaşdırılmasına aid metodoloji yanaşmalar və bir çox tədqiqatçıların elmi fikirləri aiddir

**Tədqiqatın tətbiqi əhəmiyyəti:** Zamanla Ş.Aralıq dənizi ilə həmsərhəd ölkələrin öz aralarında vahid ortaq mövqeyə gətirib çıxaran anlaşmalarının imzalanması, faydalı qazıntıların təhlükəsiz çıxarılaraq qarşılıqlı iqtisadi maraqların qorunmasını özündə əks etdirir.

**Tədqiqatın nəticələri:** Tarixin bütün dövrlərində iqtisadi diplomatiya öz aktuallığını saxlamaqdadır. Şərqi Aralıq dənizi regionunun dövlətləri dənizdə özlərinin iqtisadi zonasının sərhədlərini tam olaraq müəyyənləşdirə bilməyiblər. Regionda ən böyük mübahisə Türkiyə - Yunanıstan arasındadır. Əgər tərəflərin hər birinin iqtisadi-siyası maraqlarının kəsişməsi fonunda bir razılıq əldə edilsə, bu regionun daha da çiçəklənməsinə gətirib çıxaracaq. Bunun üçün dövlətlər diplomatiyanı bütünlüklə işə salmalı və bu sahədə aktiv təmasları artırmalı, hər cür fikir ayrılıqlarını beynəlxalq hüquqa uyğun olaraq həll etməlidir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Tədqiqat işində bir çox tədqiqatçıların elmi əsərlərinə istinad olunmuşdur. Eyni zamanda tədqiqat işində iqtisadi-diplomatik əlaqələrin uyğun istiqamətlərini tapmaqla dövlətlərin xarici-iqtisadi əlaqələrin modelinin genişləndirilməsi, mübahisəli ərazilərdə yerləşən karbohidrogen yataqlarının konsensus əsasında birgə işlənməsi üsulları qeyd edilmişdir.

***Açar sözlər: iqtisadi diplomatiya, regional münaqişələr, Şərqi Aralıq dənizi, iqtisadi maraqlar, karbohidrogen ehtiyatları.***

## *Giriş*

Aralıq dənizində, xüsusilə Şərqi Aralıq dənizində 2000-ci illərin əvvəllərindən başlayaraq geoloji araşdırmalar nəticəsində mütəxəssislər tərəfindən zəngin neft-qaz ehtiyatlarının aşkarlanması, dənizə çıxışı olan ölkələri bu ehtiyatlara sahib olmaq uğrunda kəskin rəqabətə sürüklədi. Son 10 ildə bu bölgədə yaşanan gərginlik dənizə həmsərhəd olan ölkələr arasında hüquqi-diplomatik problemlər ortaya qoymuş oldu. Son zamanlar ölkələrin iqtisadi-siyasi maraqları ilə bir dövlət digər dövlətlə qarşılıqlı olaraq dənizdə öz iqtisadi zonasının sərhədlərini müəyyən etməyə çalışırlar.

Enerji indi yer üzündə həyatı davam etdirmək üçün əvəzolunmazdır. Enerji resurslarının başında gələni bu gün neft-təbii qaz ehtiyatlarıdır. Bu ehtiyatlar çox məhdud miqdarda mövcuddur. Bu baxımdan, yer kürəsinin zəngin ehtiyatları getdikcə tükənir və daha zəngin yeni yataqlar axtarılır. Aralıq dənizi regionunun iqtisadi cəhətdən önəmli olan bölgələrindən biri də Şərqi Aralıq dənizidir. Ş.Aralıq dənizinə sərhəddi olan Türkiyə, Misir, İsrail, Suriya, Livan, Liviya, Cənubi Kipr və Yunanıstan (adaları üzərindən) dənizdə iqtisadi sərhədlərini tam olaraq müəyyənləşdirə bilməyiblər. Bu sahədə ən çox mübahisəli ərazi Türkiyə ilə Yunanıstan arasındadır. Uzun müddətdir

ki, Şərqi Aralıq dənizində Türkiyə ilə Yunanıstan arasında artan gərginlik yaşanır. 2009-cu ildə bölgədə kəşf edilən qaz yataqlarından sonra diqqət çəkən Şərqi Aralıq dənizi, sahil ölkələrinin dəniz sərhədlərini müəyyənləşdirə bilməməsi səbəbindən gərginliyin mərkəzinə çevrildi.Türkiyə, Fransa, Yunanıstan və Cənubi Kiprin ardıcıl hərbi təlimlər keçirməklə, bu regionda müəyyənləşdiriləcək sərhədləri, bölgədəki enerji qaynaqlarının necə paylaşılacağını da müəyyən edəcəklərini zənn edirdilər. Lakin digər həmsərhəd ölkələrin bu sahədə maraqlarının nəzərə alınması vacibdir. Qarşılıqlı iddialar ilə bağlı mübahisələrin dərinliyinə baxmayaraq, tərəflərin mütəmadi olaraq Avropa Birliyi və digər təşkilatların vasitəçiliyi ilə danışıqlar masasında diplomatik görüşlər keçirilməsinə mane olmur.

***Tədqiqatın əsas məzmunu***

İllərdir Aralıq dənizinin şərqində artan gərginlik, 2010-cu illərdə sakit bir dövrə qədəm qoyduğu müşahidə edilən Türk-Yunan münasibətlərini uzun illərdən sonra yenidən gözlənilməz məcraya gətirdi. Gərginliyin kökündə bir müddət əvvəl bölgədə aşkar edilmiş karbohidrogen yataqları və Türkiyənin su sahəsinə yaxın bölgələrdə yerləşən yunan adalarının kontinental şelfindəki müzakirələr durur. Qitə şelfi mübahisələrinin altında Aralıq dənizindəki ölkələrin dəniz sərhədlərinin necə çəkiləcəyi sualı dayanır. Bu, dəniz sərhədləri çəkilmək, həm də bölgədəki enerji qaynaqlarının necə paylaşılacağını müəyyənləşdirmək deməkdir.

Avropa Birliyinə görə Şərqi Aralıq dənizinə aşağıdakı hissələr daxildir:

- Adriatik dənizi, Şərqi Aralıq dənizinin əsas hissəsinin şimal-qərbində, İtalyan yarımadasını Balkan yarımadasından ayırır və Otranto Boğazından cənuba (İon dənizinə birləşdiyi yer) şimaldakı Venesiya Körfəzinə qədər uzanır. İtaliyanın və Yunanıstanın cənubunda, Aralıq dənizində ən dərin səslənən, təxminən 16.000 fut (4.900 metr) olan İon dənizi qeyd edildi (Britanica Ensiklopediyası);
- Yunan və Anadolu yarımadaları arasında olan Ege Dənizi, Girit adası ilə cənub sərhədini təyin edir (Britanika Ensiklopediyası);
- Levantin dənizi, Giritin qərbi ilə Kirenaica (Liviya) arasında bir sualtı silsiləsi ilə İon dənizindən ayrılır və Anadolu yarımadasının cənubuna qədər uzanır. Şimalda Türkiyə, şərqdə Suriya, Livan, İsrail və Qəzza, cənubda Misir və Liviya, şimal-qərbdə Egey dənizi ilə həmsərhəddir. Qərb tərəfdə Aralıq dənizi ilə (Liviya dənizi də adlanır) sərhəddir və Liviyadakı Ra əl-Hilal burnundan Giritin cənubundakı Gavdos adasına qədər bir xətt olaraq təyin edilir [6].

Hazırda Ş.Aralıq dənizinin karbohidrogen ehtiyatlarından səmərəli istifadə edən ölkə İsraildır. İsrail dənizdən qaz və neft hasilatını ən çox çıxaran ölkə olaraq qalmaqdadır. Neft və neft məhsulları İsrailin enerji istehlakının 65% -dən çoxunu idxal hesabına təmin edir. Qalan hissəni daxili hasilat ilə ödəməkdədir. Gündəlik təqribən 300000 barel neft istehlak olunur ki, bunların hamısı xaricdən idxal olunur, yalnız az miqdarda yerli neft istifadə edilir. İsrailin 1990-cı illərin sonlarına qədər kəşfiyyat işləri böyük uğurla nəticələnmədi. Bölgədəki dünyanın ən zəngin neft istehsalçıları arasında yer alan digər dövlətlərdən fərqli olaraq İsrail karbohidrogen ehtiyatları baxımından yoxsul sayılırdı. Bütün bunlara baxmayaraq son iyirmi ildə İsrailin iqtisadiyyatına dərindən təsir edən əsas hadisə kimi dənizdə böyük miqdarda qaz aşkar edilməsini qeyd etmək olar. Hal-hazırda bu qaz nəinki İsrail dövlətini təmin edir, hətta onu xarici bazarlarda satmaq imkanları yaradır. Bu sahədə ən optimal bazar olaraq Avropa qaz istehlakçıları göstərilir. Lakin bu məsələdə İsrailin regionda iqtisadi diplomatik görüşləri ölkənin mənafeləri baxımından çox vacibdir. Bu sahədə İsrail dövləti 2 əsas seçimlə üzləşir. Birincisi Türkiyədən keçməklə İsrail qazını Avropa bazarlarına, Türkiyənin hazır boru-kəmər nəqliyyatı ilə çatdırmaqdır. Digər bir vasitə isə dənizin dibi ilə boru kəməri inşa etməkdir. Sonuncu çox mübahisələr ilə dolu olduğu üçün İsrailin əsas seçimi Türkiyə ərazisindən təhlükəsiz şəkildə keçməklə bu marşrutdan istifadə etməsi gözlənilir[7].

Bölgənin digər bir əsas həllini gözləyən məsələlərindən biri də Kipr konfliktidir. 1970-ci illərdə radikal yunan milliyyətçiləri və din xadimlərinin iştiraki ilə Kipr adasına bir hərəkat başladıldı. Bu hərəkatın əsas hədəfi adanı etnik türklərdən tamamilə təmizləyib, adadan uzaqlaşdırmaq idi. Lakin

Türkiyə buna biganə qala bilməzdi. 1974-cü ilin iyul ayının 20-də adaya qoşun yeritdi, yunanlar bu savaşda məğlub oldular. Lakin bir çox xarici təzyiqlər ucbatından Türkiyə dayanmalı oldu.




***Şəkil.1 İsrailin neft-qaz infrastrukturu.***

Sonrakı diplomatik danışıqlar nəticəsində adanı Şimal və Cənub olmaqla iki hissəyə böldülər. Bu gün üzərindən uzun illər keçməsinə baxmayaraq diplomatik danışıqlar ciddi nəticələrə gətirib çıxarmayıb. Adanın coğrafi mövqeyi, onun çox zəngin neft-qaz ehtiyatlarına malik olduğu artıq öz təsdiqini tapmışdır. Bir çox hallarda iqtisadi diplomatik kanallar ilə müəyyən məhdud həcmdə razılaşmalar əldə edilsə də, münaqişənin siyasi-iqtisadi həllində ciddi nəticə əldə edilməyib.

Kipr problemini daha yaxşı başa düşmək üçün Kiprin qısa tarixinə nəzər salmaqda fayda var. Kipr təbii sərvətləri və xüsusilə strateji mövqeyi ilə uzun müddətdir Aralıq dənizi dövlətlərinin diqqətini çəkir. Ölkə Aralıq dənizindəki güc balansına görə davamlı olaraq əl dəyişdirirdi. Genuyalılar və Venesiyalılar tərəfindən 1571-ci ildə Osmanlı İmperiyasının koloniyalarına qatıldı. 1878-ci il Osmanlı-Rus müharibələri zamanı Osmanlılar çarizmə qarşı İngiltərə ilə ittifaq qurdular. Müqaviləyə əsasən, Kipr müvəqqəti olaraq Böyük Britaniyaya verildi[8].

Birinci Dünya müharibəsində Osmanlılar bu dəfə Almaniyanın tərəfində döyüşə qatıldılar. Osmanlıların bu rəftarı səbəbindən əks cəbhədə olan İngiltərə Kipri öz müstəmləkələrinə qatdı. Lozanna müqaviləsi ilə Türkiyə Kipr üzərində suverenliyini itirdi. Ada 1959-cu ilə qədər Britaniya koloniyası olaraq qaldı. İngiltərə, Türkiyə və Yunanıstan arasında Sürix müqaviləsi imzalanıb. Müvafiq olaraq, Kipr müstəqil respublika oldu. Müqaviləni imzalayan üç ölkə də qurulacaq yeni respublikanın müstəqilliyini elan etdi.

Kipr Respublikasının yaradılması 1960-cı il London müqaviləsi ilə rəsmi olaraq elan edildi. Türkiyənin Şərqi Aralıq dənizi siyasətini formalaşdırarkən nəzərə alınan faktorlardan biri də bu bölgənin Türkiyə iqtisadiyyatı üçün əhəmiyyətidir. Bu çərçivədə Şərqi Aralıq dənizi həm enerji qaynaqları baxımından zəngindir, həm də Türkiyə region ölkələri ilə ikitərəfli iqtisadi əlaqələr baxımından kritik bir məsələdir. Çünki Türkiyə həm xarici enerji asılılığını azaltmaq, həm də dünya ilə, xüsusən də qonşu dövlətlərlə ticarətini artırmaq istəyir. Bu baxımdan Türkiyə Şərqi Aralıq dənizi siyasətini formalaşdırarkən, bir tərəfdən də öz kontinental şelfindən intensiv istifadə edir. O, təbii qaz və neft kəşfiyyatı işlərini digər ölkələrdə həyata keçirir.

Türkiyə üzərindən Qərbə gedən dəniz yurisdiksiyası ərazilərində aşkar edilən təbii qaz digər tərəfdən də öz bazarlarına çatmaq üçün siyasət yürüdür. Region ölkələri ilə iqtisadi əlaqələrini yaxşılaşdırmağa çalışır [9].

Diplomatik təmasların davam etməsinə baxmayaraq dövlətlər ayrı-ayrılıqda özlərinin iqtisadi maraqlarını üstün tutaraq neft-qaz axtarışlarını davam etdirməkdədir. Zaman-zaman dənizdə

kəşfiyyat-axtarış fəaliyyəti həyata keçirən istər türk, yunan, italyan və digər ölkələrin gəmilərinin başqa ölkənin iqtisadi zonasına girməsi səbəb gətirilərək güclə uzaqlaşdırılmışdır. Bu kimi addımlar ciddi diplomatik münasibətlərin həddindən artıq gərilməsinə və konfliktin daha da böyüməsinə aparan addımlar kimi qiymətləndirilə bilər.

Regiondakı bir çox dövlətlə ikitərəfli müqavilələr bağlayaraq, dənizdə qitə şelfini və ərazi sularının sərhədlərini müəyyənləşdirir, lakin bu vəziyyət problemləri həll etməyə kifayət etmir. Problemin qalan dövlətlər üçün çıxılmaz vəziyyətə sürükləndiyi görünür. Hazırda buna misal olaraq Misir-C.Kipr, Yunanista-İtaliya, Türkiyə- Liviya, İsrail-C.Kipr və başqa qarşılıqlı bağlanmış iqtisadi müqavilələri misal olaraq göstərmək olar [10].

İspaniyanın Sevilya Universitetinin insan coğrafiyası bölməsinin dəniz coğrafiyası üzrə mütəxəssisi Prof. Juan Luis Suarez de Vivero tərəfindən hazırlandığı üçün bu xəritənin (aşağıda qeyd edilib) adı qısa olaraq universitetin adını daşıyır. Bu xəritənin Ankarada narahatlıq yaratması aşağıdakı səbəblərdən qaynaqlanır: Xəritə Yunanıstanın Egey və Aralıq dənizlərində kontinental şelf olaraq iddia etdiyi ərazini və C.Kipr tərəfindən elan edilən “Müstəsna İqtisadi Bölgə” -ni təsvir edir. 2004-cü ildə AB-yə Meis adasından başlayan Yunan qitə şelfi, cənubdan Aralıq dənizinin ortasına enir və Türkiyənin Antalya körfəzi istisna olmaqla Aralıq dənizindən çıxmasına icazə vermir. Eyni şəkildə, xəritədə Türkiyənin Egey dənizindəki kontinental şelfi 6 millik ərazi suları ilə məhdudlaşdırılır, qalan ərazi isə böyük ölçüdə Yunanıstana aid edilir. Bunun Türkiyə üçün qəbuledilməz olmasını hər kəs anlayır, lakin bunun uçün təzyiqlərini də edirlər.




**Şəkil 2. Sevilliya xəritəsi [11].**

Beynəlxalq dəniz hüququnun əsasını adət hüququ təşkil edir. Bunun həyata keçirilməsində iki əsas mərhələ var. Bunlardan birincisi 1958-ci ilə aid Dəniz Hüququ üzrə Cenevrə Konvensiyasıdır. Daha sonra 1982-ci ildə qəbul edilən Dəniz Qanunu Konfransı ilə bu günün Beynəlxalq Dəniz Qanunu qaydaları formalaşdı. Beynəlxalq Ədalət Məhkəməsinin Statusunun 382-ci maddəsi də Qanunun mənbələri sayılır. Buna görə: beynəlxalq müqavilələr, beynəlxalq hüququn əsas mənbələri; beynəlxalq hüquq və doktrina onun köməkçi mənbələridir. “Jus cogens” olaraq ifadə edilən Beynəlxalq ictimai asayiş qaydaları bu mənbələr arasındadır.

Türkiyə Şərqi Aralıq dənizində bir iqtisadi-diplomatik gediş edərək Türkiyə-Liviya sazişini imzaladı. Bu, bölgədəki proseslərə necə təsir edir?

Bu sazişi qısa olaraq belə şərh etmək olar ki, Türkiyə dənizdə Liviya ilə olan sərhəddini müəyyən etməklə artıq Aralıq dənizinin bu hissəsində öz dominantlığını sübut etmiş oldu. Liviyada olan vətəndaş müharibəsində Türkiyə BMT tərəfindən tanınmış hökuməti dəstəklədi. Bu yolla həm regional maraqlarını qorumuş oldu, həm də Liviyanın zəngin neft-qaz yataqlarının yenidən işlənməsi və ölkənin yenidən qurulmasında türk firmalarının pay sahibi olmasına gətirib çıxardı.

Regionda maraqlı güclərin iqtisadi diplomatik həmlələri diqqətləri regionun malik olduğu iqtisadi zəngin rezervlərinə yönəldir. Son illərdə mütəxəssislərin tədqiqatları göstərir ki, Şərqi Aralıq dənizi dünyanın ümumi təbii qaz ehtiyatlarının təqribən 4,5 faizinə sahibdir. Bu rəqəmlər bu günə qədər seysmik kəşfiyyat və qazma işləri aparılmış ərazilərə əsaslanır. Bu ehtiyatların əhəmiyyətli bir hissəsi Kipr, Misir və İsrail sahillərinin kəsişdiyi bölgədəki Tamar və Leviafan yataqlarındadır.

Aralıq dənizi sahilindən Qərbi Nil Deltası ərazisinə qədər uzandığını göstərir:

- Tamarda xətt üzərində ən böyük təbii qaz yataqları 318 milyard kubmetr;
- Leviafanda 605 milyard kubmetr;
- Afroditada 129 milyard kubmetr;
- Kalipsoda 230 milyard kubmetr və Zohrda 850 milyard kubmetr təbii qaz aşkar edilib.

Levant və Nil Deltası bölgələrində ümumilikdə 9,8 trilyon kubmetr təbii qaz ehtiyatı olması təxmin edilir [12].

Levant və Qərbi Nil hövzələrindəki kəşflərdən başqa, qitə şelfinin yerləşdiyi Türkiyənin cənub-qərb sahillərindən Liviyanın şərqinə və Misirin qərb sahilinə qədər uzanan bölgədə hələ də geniş tədqiqatlar aparılmayıb. Egey dənizində Türkiyə ilə Yunanıstan arasındakı dəniz Yurisdiksiyasının delimitasiyası məsələlərinə görə hələ də hərtərəfli enerji hüdudları mövcud deyil və ya araşdırma aparılmayıb. Məlumdur ki, onun hüdudlarında olan bəzi rayonlar da təbii qazla kifayət qədər zəngindir. Vefa və Bori kimi təbii qaz yataqlarına sahib olan Liviyada ümumilikdə təxminən 1,5 trilyon kubmetr təbii qaz var. Bu ehtiyatı ilə dünyada iyirmi ikinci; Zohr, Qərbi Nil Deltası və Atoll yataqlarına sahib olan Misir 2,2 trilyon kubmetr təbii qazla dünyada on altıncı yerdədir.

Təbii qazla yanaşı, Şərqi Aralıq dənizi regionunun neft ehtiyatları baxımından çox zəngin bir bölgə olduğunu vurğulamaq lazımdır. Dəniz və quru əraziləri baxımından təqribən 64 milyard barel təsdiqlənmiş neft ehtiyatına malik olan Şərqi Aralıq dənizi regionu dünyanın ümumi neft ehtiyatlarının təxminən 3,7 faizinə malikdir. Bu çərçivədə dəniz sahələrinin yanında (yuxarıda qeyd etdiyimiz kimi), xüsusilə Liviya təxminən 48,4 milyard barellə dünya neft ehtiyatlarının 3,2%-ni təşkil edir. Misirin də təxminən 3,3 milyard barel neft ehtiyatlarına malik olduğu məlumdur [13].

Yaxın keçmişə nəzər saldıqda bu sahədə bəzi anlaşmalar olduğunu və bununla yanaşı iqtisadi diplomatik təmasların da paralel aparıldığının şahidi oluruq. Hələ Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Yunanıstanın "Kathimerini" qəzetinə 6 fevral 2018-ci il tarixində verdiyi müsahibədə Misir və Kipr arasında Xüsusi İqtisadi Zonaların sərhədlərinin müəyyən edilməsinə dair 2013-cü il müqaviləsinin beynəlxalq hüquqa görə zidd olduğunu bildirib. Lakin Misir Xarici İşlər Nazirliyinin sözçüsü bu açıqlamaya reaksiya verib və sazişin BMT-də qeydiyyatdan keçdiyini bildirib.

Regionda ən böyük iqtisadi maraqları olan ölkələrdən biri də ABŞ-dır. Amerika Birləşmiş Ştatlarına aid TMK-lar regionda qaz və neft yataqlarının vaxtaşırı qazma-kəşfiyyatını həyata keçirməkdədir. 28 fevral 2018-ci ildə Yunan Kiprinin Energetika Nazirliyi və Amerikanın ExxonMobil enerji şirkəti Kiprdə indiyə qədər aşkar edilmiş ən böyük təbii qaz ehtiyatının – 141 ilə 226 milyard kubmetr həcmdə qaz ehtiyatlarının tapıldığını elan etdilər [15].

Bunlara cavab olaraq 30 oktyabr 2018-ci il tarixində Türkiyənin TPAO neft şirkətinə məxsus "Fatih" qazma gəmisi Kiprin qərbində neft kəşfiyyatına başlayıb. Müəyyən ehtiyatlar aşkarlansa da qazma-kəşkiyyat işləri davam etməkdədir. Türkiyəyə məxsus Fatih qazma gəmisi aktiv qazma işləri apardığı zaman yunan Kipri bəzən ona məxsus olduğunu deyərək etiraz etmişdir. Lakin Alanya-1 adlanan bu ərazi Kiprin iddia etdiyi hissələrdə yerləşmir [16].

## *Nəticə*

Bütün dövrlərdə iqtisadi diplomatiya öz aktuallığını saxlamaqdadır. Dövlətlər öz iqtisadi maraqlarını qorumaq üçün özünün diplomatik kanallarını birbaşa hər bir mübahisəli məsələyə yönəldərək öz maraqlarını maksimum qorumağa çalışır. Şərqi Aralıq dənizinin Azad İqtisadi Zonasına konkret mübahisə obyekti kimi, dənizin malik olduğu zəngin enerji resurslarını göstərə bilərik.

Enerji resursları indi yer üzündə həyatı davam etdirmək üçün ən əvəzolunmaz vasitələrdəndir. Enerji resurslarından ən zəruri olanlar isə neft-təbii qaz ehtiyatlarıdır. Bu karbohidrogen ehtiyatları çox məhdud miqdardadır. Bu baxımdan da, yer kürəsinin zəngin ehtiyatları getdikçə tükənir və daha zəngin yeni yataqlar axtarılır. Aralıq dənizi regionunun iqtisadi baxımdan önəmli olan bölgələrindən biri də Şərqi Aralıq dənizidir. Ş.Aralıq dənizinə sərhəddi olan Türkiyə, Misir, İsrail, Suriya, Livan, Liviya, Cənubi Kipr və Yunanıstan (adaları üzərindən) dənizdə iqtisadi sərhədlərini tam olaraq müəyyənləşdirə bilməyiblər. Bu bölgədə mübahisə obyekti olan məsələlərin həlli ilə bağlı Avropa Birliyinin vasitəçiliyi ilə iqtisadi-diplomatik təmasları tərəflər özləri arasında qururlar. Məqalədə də qeyd edildiyi kimi, regionda ən böyük mübahisə Türkiyə - Yunanıstan arasındadır. Əgər tərəflərin hər birinin iqtisadi-siyası maraqlarının kəsişməsi fonunda bir razılıq əldə edilsə bu, regionun daha da çiçəklənməsinə gətirib çıxaracaq. Bunun üçün dövlətlər diplomatiyanı bütünlüklə işə salmalı və bu sahədə aktiv təmaslar artırılmalıdır.

## ƏDƏBİYYAT


1. Fuat Aksu, “Doğu Akdeniz Deniz Yetki Alanları Sorunu ve Türkiye - AB İlişkileri”, Doğu Akdeniz'de Hukuk ve Siyaset, Sertaç Hami Başeren (Y. Haz.), Ankara: A.Ü. SBF Yay., 2013, ss. 159-196.
2. Conflict & Prosperity: Geopolitics and Energy in the Eastern Mediterrianean, Israol Academy Press, 07.07.2017, page 228.
3. Maritime disputes in the Eastern Mediterranean The Way Forward, Roudi Barovdi, Transatlantic Leadership Network, July 21, 2020. Page 114.
4. Eastern Mediterranean And Turkey . political , judical and economics perspectives, Kemal Inat, Muhittin Ataman, and Burhanettin Duran 2020. Page 344.
5. Blue Water War: The Maritime Struggle in the Mediterranean and Middle East, page 229
6. https://www.msp-platform.eu/sea-basins/east-mediterranean
7. https://www.gov.il/en/departments/ministry_of_energy
8. https://www.marxists.org/turkce/konu/turkiyekom/tkp-is/books/KibrisSorunu.pdf
9. Deniz İstikbal ve Hacı Mehmet Boyraz, “Doğu Akdeniz Enerji Kaynaklarına Ekonomi-Politik Bir Yaklaşım”, Kıbrıs Araştırmaları ve İncelemeleri Dergisi, Cilt: 3, Sayı: 5, (2019), s. 69-86.
10. Prof. Dr. Mehmet Akif KÜTÜKÇÜBatman Üniversitesi Batman University Yaşam Bilimleri Dergisi; Cilt 6 Sayı 2/1 (2016)
11. https://www.hurriyet.com.tr/gundem/sevilla-haritasi-nedir-iste-hakkinda-merak-edilenler-41611082
12. Yunus Furuncu, “Doğu Akdeniz’de Türkiye Dışındaki Ülkelerin Hidrokarbon Arama ve Sondaj Faaliyetleri”, Doğu Akdeniz Sorunu ve Türkiye, ed. Kemal İnat, Muhittin Ataman ve Burhanettin Duran, (SETA, İstanbul: 2020).
13. “International Energy Statistics”, EIA, www.eia.gov/international/data/world, (Erişim tarihi: 25 Mart 2020).
14. Oil Data: Upstream”, OPEC, www.opec.org/opec_web/en, (Erişim tarihi: 25 Mart 2020).
15. "Güney Kıbrıs'ın sondaj ruhsatı verdiği ExxonMobil, 10. parselde dünyanın en büyük gaz rezervlerinden birini buldu". *Sputnik Türkiye. 28 Şubat 2019 tarihinde kaynağından* arşivlendi. Erişim tarihi: 28 Şubat 2018.
16. Türkiye Akdeniz'de ilk derin deniz sondaj çalışmalarına başladı". Euronews Türkçe. 19 Temmuz 2019 tarihinde kaynağından arşivlendi. Erişim tarihi: 30 Ekim 2018.
17. https://www.tpao.gov.tr/file/2106/2020-petrol-ve-dogal-gaz-sektor-raporu-47460b743c70c609.pdf

*Канан Сахаддин оглу Мусаев*
*докторант Бакинский Государственный Университет*
*E-mail: kenan.musayev.57@gmail.com*

**Экономическо-дипломатическая попытки для определения «территории свободной экономической зоны» приграничных стран в восточном средиземноморье**

**Резюме**

**Цель исследования -** Экономическая дипломатия должна оказывать адекватное влияние на экономические конфликты в каждом регионе, и страны пытаются добиться большего мира и стабильности через такие дипломатические каналы. В мире есть регионы, где пересекаются экономические интересы государств. Восточное Средиземноморье является одним из таких регионов. В связи с этим важно детально изучить регион.

**Методология исследования -** Сравнительный анализ и разработка экономического значения Восточного Средиземноморья и развития экономических дипломатических отношений, а также методологические подходы к стимулированию внешней торговли при формировании этих отношений и научные взгляды многих исследователей.

**Практическая значимость исследования -** Подписание соглашений, которые со временем привели к общей позиции между странами, граничащими со Средиземноморьем, отражает безопасную добычу полезных ископаемых и защиту взаимных экономических интересов.

**Результаты исследования -** Экономическая дипломатия оставалась актуальной на протяжении всей истории. Государства региона Восточного Средиземноморья не смогли полностью определить границы своей экономической зоны на море. Самый большой спор в регионе идет между Турцией и Грецией. Если соглашение будет достигнуто на фоне пересечения экономических и политических интересов каждой из сторон, оно приведет к дальнейшему процветанию региона. Для этого государства должны в полной мере заниматься дипломатией и наращивать активные контакты в этой сфере, а любые разногласия разрешать в соответствии с международным правом.

**Оригинальность и научная новизна исследования -** Исследование ссылается на научные работы многих исследователей. При этом в исследовании выделены пути расширения модели внешнеэкономических связей государств, нахождения соответствующих направлений экономических и дипломатических отношений, совместной разработки месторождений углеводородов в спорных районах на основе консенсуса.

***Ключевые слова - экономическая дипломатия, региональные конфликты, Восточное Средиземноморье, экономические интересы, углеводородные ресурсы.***

*Kanan Sahaddin Musayev*
*Ph.D. student, Baku State University*
*E-mail: kenan.musayev.57@gmail.com*

**The economic-diplomatic for the efforts of "territorıes of free economic zone countries borders" ın the eastern mediterranean sea**

***Summary***

**The purpose of the research:** The aim of the study is to ensure that economic diplomacy has an adequate impact on economic conflicts in each region, and that countries strive for greater peace and stability through such diplomatic channels. There are regions in the world where the economic interests of states intersect. The Eastern Mediterranean is one of such regions. In this regard, it is important to study the region in depth.

**Research methodology:** Comparative analysis and development of the economic significance of the Eastern Mediterranean and the development of economic diplomatic relations, as well as methodological approaches to stimulating foreign trade with the formation of these relations and the scientific views of many researchers.

**The practical importance of the research**: The signing of agreements that have led to a common position between the countries bordering the Mediterranean over time reflects the protection of mutual economic interests through the safe extraction of minerals.

**The results of the research**: Economic diplomacy has remained relevant throughout history. The states of the Eastern Mediterranean region have not been able to fully define the boundaries of their economic zone at sea. The biggest dispute in the region is between Turkey and Greece. If an agreement is reached against the background of the intersection of economic and political interests of each of the parties, it will lead to further prosperity in the region. To this end, states must fully engage in diplomacy and increase active contacts in this area, and resolve any differences in accordance with international law.

**The originality and scientific novelty of the research:** The research refers to the scientific works of many researchers. At the same time, the study highlighted the ways to expand the model of foreign economic relations of states, finding appropriate areas of economic and diplomatic relations, the joint development of hydrocarbon deposits in disputed areas on the basis of consensus.

***Key words: economic diplomacy, regional conflicts, the Eastern Mediterranean, economic interests, hydrocarbon resources.***